AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə
Dövlət Proqramı"

## MÜHƏNDİSLİK İXTİSASLARI ÜZRƏ BAKALAVRİAT BEYNƏLXALQ İKİLİ DİPLOM PROQRAMLARI

Xarici tərəfdaş universitet:
**İNHA UNİVERSİTETİ**
**(Koreya Respublikası)**



Yerli tərəfdaş universitet:
**BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ**
**(Azərbaycan)**



**Tədris ili:** 2021/2022

| | | |
|---|---|---|
| **Hədəf:** | → | • Ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, mühəndislik sahəsində Azərbaycanda 21-ci əsrin tələblərinə cavab verən yeni nəsil mütəxəssislər yetişdirmək,<br>• Bu sahədə Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirmək |
| | | |
| **Təhsil səviyyəsi:** | → | **Bakalavriat** |
| | | |
| **İxtisaslar:** | → | • **İnformasiya texnologiyaları** (keçid balı - 400)<br>• **İnşaat mühəndisliyi** (keçid balı - 350)<br>• **Elektrik mühəndisliyi** (keçid balı - 350)<br>• **Elektronika mühəndisliyi** (keçid balı - 350) |
| | | |
| **İlkin kvota:** | → | hər bir ixtisas üzrə **25 nəfər** (ümumilikdə 100 nəfər) |
| | | |
| **Müddət:** | → | **4** il (3 il - Azərbaycanda, 1 il - Cənubi Koreyada) |
| | | |
| **Tədris dili:** | → | 3 il BMU-da **İngilis dilində** təhsil (əlavə olaraq Koreya dili tədris ediləcəkdir)**;**<br>1 il İNHA-da **Koreya dilində** təhsil. |
| | | |
| **Son müraciət tarixi:** | → | **20 Avqust 2021-ci il (saat 23:55)** |

| | | |
|---|---|---|
| **Təhsil xərclərinin maliyyələşdirilməsi:** | → | Cari proqram 4 il ərzində tam olaraq dövlət vəsaiti hesabına təmin olunur. “2019-2023 Dövlət Proqramı” tərəfindən qarşılanan xərclər:<br>• Cənubi Koreyada 1 illik təhsil xərcləri;<br>• Cənubi Koreyada 3 həftəlik yay məktəbində iştirak xərcləri;<br>• Təhsil haqqı;<br>• Qeydiyyat xərci;<br>• Tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri. |
| | | |
| **Proqram məzunları sahib olacaq:** | → | • 4 il – 2 diplom;<br>• Cənubi Koreyada təhsil alaraq beynəlxalq təcrübəni öyrənmək;<br>• Çoxdilli tədris mühitində oxumaq;<br>• Seçilmiş yerli və xarici universitetlərin professor-müəllim heyəti ilə tədris;<br>• Müasir bilik və bacarıqlara yiyələnərək, dünya səviyyəli uğurlu mütəxəssis olmaq;<br>• Azərbaycan və dünyanın istənilən nöqtəsində işlə təminat imkanı;<br>• Magistratura və doktorantura təhsillərini Cənubi Koreyada təqaüdlə davam etdirmək imkanı |
| | | |
| **İlkin seçim meyarları:** | → | Beynəlxalq ikili diplom proqramına qəbul Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən bakalavriat pilləsi üzrə qəbul imtahanlarının nəticələri və İNHA Universiteti tərəfindən keçirilən müsabiqə (daxili imtahan) əsasında aparılır:<br>• Namizədlər Azərbaycan Respublikasının vətəndaşı olmalıdırlar;<br>• 2021-ci ildə AR Dövlət İmtahan Mərkəzinin (DİM) 1-ci ixtisas qrupu imtahanında iştirak etmiş və uğurla keçən abituriyentlər;<br>• BMU-İNHA İDP-nin hər ixtisas üzrə müəyyən edilmiş müvafiq keçid balını toplamaq (keçid balları yuxarıda qeyd edilmişdir);<br>• Proqrama müraciət etmiş namizədlər BMU ilə İNHA Universitetinin birgə təşkil etdiyi daxili imtahandan uğurla keçməlidirlər: yazılı (riyaziyyat və fizika) və şifahi (ingilis dili müsahibəsi). |
| | | |
| **Müraciət proseduru və tələb olunan sənədlər:** | → | Daxili imtahanda iştirak etmək üçün “onlayn anket formasını” dolduraraq tələb olunan sənədləri təqdim etmək lazımdır:<br>• **Özünü təqdimetmə forması;**<br>• **3x4 ölçüdə rəngli fotoşəkil;**<br>• **Şəxsiyyət vəsiqəsinin surəti;**<br>• **Məktəb attestatın ingilis dilində tərcüməsi və notarial təsdiqi** (attestatını almayan tələbələr təhsil aldıqları orta məktəbdən imzalı və möhürlü arayış təqdim etməlidir);<br>• **DİM tərəfindən keçirilmiş hər iki imtahanda topladığı balı təsdiq edən rəsmi sənəd;**<br>• **İngilis dili sertifikatı: İELTS və ya TOEFL** (olduğu təqdirdə). |

| | | |
|---|---|---|
| | | Müsabiqədə iştirak etmək üçün daxili imtahanın vaxtı:<br><br>**23 Avqust 2021-ci il** (yazılı imtahan / riyaziyyat və fizika)<br>**24 Avqust 2021-ci il** (şifahi imtahan / İngilis dili üzrə müsahibə)<br><br>Nəticələr rəsmi olaraq **27 Avqust 2021-ci il** tarixində elan ediləcəkdir<br><br>**Qeyd 1:** Mövcud pandemiya vəziyyətini nəzərə alaraq, daxili imtahan yazılı və şifahi olmaqla, onlayn formada, İngilis dilində həyata keçiriləcəkdir<br><br>**Qeyd 2:** BMU-İNHA İDP-yə qəbul olunmuş namizədlərin siyahısı Təhsil Nazirliyinə göndərilərək, DİM-də rəsmi olaraq qeydiyyata alınır. Əlavə olaraq, qəbul olunmuş namizədlər rəsmi BMU-İNHA İDP tələbəsi statusunu qazanaraq, DİM-in ixtisas seçimində (kodlaşdırma) iştirakdan azaddırlar.<br><br>**Qeyd 3:** BMU-İNHA İDP-yə qəbul olmayan namizədlərin DİM-in ixtisas seçimində (kodlaşdırma) iştirak etmək üçün vaxtları olacaq. |
| | | |
| **Əlavə məlumat və əlaqə:** | → | BMU-İNHA İDP  ilə əlaqədar suallarınıza cavab tapmaq üçün:<br>• E-mail: beu-inha@beu.edu.az<br>• Facebook: www.facebook.com/ddp.beu.inha<br>• WEB: https://bit.ly/3xRLhuS<br>• Mobil: +99451 215-57-34<br>• Tel.: +99412 349-99-66/67 (daxili: 2423)<br><br>Əlavə məlumat üçün aşağıda qeyd olunan müvafiq keçidə daxil ola bilərsiniz:<br>• BMU-İNHA İDP / Daxili imtahanın keçirilməsi ilə bağlı təlimat<br>• BMU-İNHA İDP / FAQ/MVS (tez-tez verilən suallar) |